## *AZƏRBAYCAN DİLİNİN TƏDRİSİ METODİKASI*

UOT 37.01

***Maya Rəhim qızı Qasımova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllim,*
*pedaqogika üzrə fəlsəfə doktoru*

# İBTİDAİ MƏKTƏBDƏ AZƏRBAYCAN DİLİ DƏRSLƏRİNDƏ ORFOQRAFİK VƏRDİŞLƏRİN FORMALAŞDIRILMASI

***Мая Рагим гызы Касумова***
*старший преподаватель*
*Азербайджанского Государственного Педагогического Университета,*
*доктор философии по педагогике,*

# ФОРМИРОВАНИЕ ОРФОГРАФИЧЕСКИХ НАВЫКОВ В НАЧАЛЬНОЙ ШКОЛЕ НА УРОКАХ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА

***Maya Rahim Gasimova***
*Senior Lecturer of the Azerbaijan State Pedagogical University*
*doctor of philosophy in pedagogy*

# THE FORMATION OF AZERBAIJANI SPELLING SKILLS FOR ELEMENTARY SCHOOL

**Xülasə**:Məqalədə ibtidai sinif şagirdlərində orfoqrafik vərdişlərinin formalaşdırılması yollarından danışılmışdır. Bu məqsədlə bir sıra çalışma və didaktik oyunlardan istifadənin faydalı olduğu qeyd edilmişdir. Belə ki, onlar şagirdlərdə orfoqrafik gözüitiliyin formalaşdırılmasına, orfoqramın xarakterini müəyyənləşdirmək, onu müəyyən qaydaya aid edə bilmək və yazıda həmin qaydanı tətbiq etmək bacarığının inkişafına imkan yaratmaqla orfoqrafik savadlılığı təmin edir.

***Açar sözlər:*** *orfoqrafik vərdişlər, ibtidai sinif şagirdləri, imlalar, orfoqrafik gözüitilik, orfoqramlar, didaktik oyunlar, orfoqrafik savadlılıq*

**Резюме:** В статье рассматриваются пути формирования навыков правописания учеников начальной школы. Было отмечено, что для достижения этой цели полезно использование разных орфографических упражнений и дидактических игр. Так, как они формируя в учениках орфографическую зоркость, умение определить характер орфограммы, относить его к определенному правилу и применить эту правилу в письме обеспечивают орфографическую грамотность.

***Ключевые слова**: орфографические навыки, ученики начальных классов, диктанты, орфографическая зоркость, орфограммы, дидактические игры, орфографическая грамотность*

**Summary:** İn the article is talked about the ways of forming orphographic habits in primary school students. For this purpose is noted that it is very useful to use different exercises and didactic games. So they enable to form orphographic skills, to define the character of orphograms, to be able to relate it to the definite rule and to develop the ability to apply this rule in writing and by this they provide orphographic literacy.

***Key words:*** *orphographic habits, elementary school students, spells, orphographic skills, orphograms, didactic games, orphographic literacy*

İbtidai məktəbdə Azərbaycan dili fənni şagirdlərdə bir sıra bacarıq və vərdişlərin formalaşmasına xidmət etməsi baxımından çoxşaxəli funksiya daşıyır: şagirdlərin ilkin savada yiyələndirilməsi, oxu vərdişlərinin təşəkkülü, kolliqrafik bacarıqlarının, şifahi və yazılı nitqinin

formalaşdırılması və s. Yazılı nitq insanın həyat fəaliyyətində əhəmiyyətli yer tutur. Yazı mədəniyyətinin səviyyəsində həlledici göstərici isə - onun savadlılıq dərəcəsidir.

İnsanların yazılı ünsiyyətdə qarşılıqlı anlaşmasının təmin olunması üçün orfoqrafik savadlılığın zəruriliyi cəmiyyət tərəfindən daim dərk olunmuşdur. Məhz buna görədir ki, savadlı yazının öyrədilməsi məsələsi milli məktəbin bütün inkişaf mərhələlərində mərkəzi problemlərdən biri olmuş və olmaqda davam edir.

Orfoqrafik savadlılıq probleminin həlli kökləri ibtidai məktəbdən başlayır. Belə ki, məhz ibtidai məktəbdə bütün linqvistik bilik, bacarıq və vərdişlərin təməli qoyulur və uşağın gələcək təhsilinin gedişatı bir çox hallarda bu təməlin düzgünlüyündən, möhkəmliyindən asılıdır. Azərbaycan dili dərslərində ibtidai sinif şagirdlərinin orfoqrafik vərdişlərinin formalaşdırılması yollarının tədqiqi zəruriliyi məhz bu səbəblə bağlıdır.

İlk öncə orfoqrafik vərdişlərin psixoloji təbiətini öyrənməyə çalışaq. Psixologiyada vərdişlərin iki tipi müəyyən edilmişdir. Birincisi, çoxsaylı, mexaniki təkrarlar əsasında formalaşan vərdişlərdir ki, bunlar əsasən fiziki fəaliyyətlə bağlı olanlardır. İkinci tipə isə, sadə və ya mürəkkəb əqli fəaliyyət əsasında formalaşan və "insanın şüurlu fəaliyyətinin avtomatlaşmış komponenti" olan vərdişlər aiddir.

Orfoqrafik vərdişlər ikinci tipdəndir və bu baxımdan insanın yazılı formada cərəyan edən şüurlu nitq fəaliyyətinin avtomatlaşmış komponenti kimi nəzərdən keçirilə bilər.

Orfoqrafik vərdişlər nitq vərdişi olduğu üçün, spesifik xarakter daşıyır. O, davamlı məşq prosesində formalaşır. Orfoqrafik vərdişlərin yaranması əsasında daha sadə vərdişlər durur: yazı vərdişi, sözü fonetik cəhətdən təhlil etmək, onun morfem tərkibini müəyyənləşdirmək, sözdə diqqət yetirilməsi vacib olan orfoqramı ayırmaq, həmin orfoqramı müvafiq qrammatik qaydaya aid etmək və s. bacarıqlar.

Hələ I sinifdə - savad təlimi dövründə orfoqrafik bacarıq və vərdişlərin formalaşdırılması üçün nəzəri baza yaranır: şagirdlər seçilmiş material üzərində "səs", "hərf" anlayışları ilə tanış olurlar. İbtidai təhsil boyunca onlar, sözdə orfoqramın tapılması üsullarına yiyələnir, söz üzərində müxtəlif orfoqrafik əməliyyatlar icra edirlər. Tədricən şagirdlərdə sözdə səslərin güclü və zəif mövqeyini müəyyənləşdirmək bacarığı formalaşır.

Şagirdlərdə davamlı orfoqrafik vərdişlərin formalaşdırılması üçün onların ikipilləli orfoqrafik əməliyyat bacarıqlarına yiyələnməsi zəruridir. Bu pillələrdən birincisi, şagirdin orfoqrafik vəzifəni müəyyənləşdirə bilməsi (yəni sözdə yazılışı çətin orfoqramı görə bilməsi), ikincisi isə bu vəzifəni yerinə yetirməsidir (yəni müvafiq qaydaya uyğun olaraq həmin orfoqramın düzgün yazılış formasını seçməsidir).

Birinci pillənin çətinliyi ondadır ki, şagird özü öz qarşısında vəzifə qoymağı bacarmalıdır: belə ki, o, yazı prosesində, yazdığı mətnin məzmunundan, yazı texnikasından yayınmadan, sözdə çətin orfoqramı tapmalıdır. Nəzərə alsaq ki, şagirdin yazdığı hər sətirdə bir neçə orfoqram ola bilər və prosesin yerinə yetirilməsi üçün vaxt məhdudiyyəti qoyulur, məsələ bir qədər də mürəkkəbləşir.

Deməli, artıq I sinifdən şagirdlərdə aşağıdakı bacarıqlar formalaşdırılmalıdır:

1. Orfoqrafik vəzifə qoya bilmək (orfoqramı tapmaq);
2. Orfoqramın tipini müəyyənləşdirmək və onu müəyyən qaydaya aid edə bilmək (qaydanı seçmək);
3. Orfoqrafik vəzifənin həlli alqoritmini düzgün yerinə yetirmək (sözün yazılışının yoxlanması üsulunu müəyyənləşdirmək, yoxlamaq və sözü səhvsiz yazmaq);
4. Orfoqrafik özünənəzarəti həyata keçirmək.

Düzgün yazı vərdişləri formalaşdırmaq üçün şagirdlərlə sistematik olaraq iş aparılmalıdır. Bu iş özündə üç addımı ehtiva edir. Birincisi, şagirdlərə səsləri eşitməyi, hecada, sözdə səslərin sayını və ardıcıllığını müəyyənləşdirməyi (fonematik eşitmə), sait və samit səsləri, vurğulu və vurğusuz hecaları fərqləndirməyi öyrətmək lazımdır. Bunu sözün səs tərkibini göstərən müxtəlif sxemlərin köməyi ilə etmək olar. Bu işə barmaqarası yanaşılmamalıdır. Belə ki, bu bacarıqlara yiyələnməmiş şagirdlər gələcəkdə sözlərin yazılışında hərfartırma, hərfburaxma hallarına yol verirlər.

Əksər hallarda, elə olur ki, şagird qaydanı bilir, lakin yazıda həmin qayda ilə bağlı səhvlərə yol verir. Buna görə də ikinci addım – şagird-

lərdə orfoqrafik gözüitilik tərbiyə etməkdir. İbtidai sinif müəllimi şagirdə çətin orfoqramı görə bilməyi və tanımağı öyrətməlidir. Lakin bu vərdiş bir-iki gündə deyil, çoxsaylı təkrarların nəticəsi olaraq, fəaliyyət prosesində formalaşır.

Savadlı yazıya nail olmaq üçün zəruri olan üçüncü addım, şagirdlərdə özünənəzarəti formalaşdırmaqdır. Şagird, yazısına nəzarət etməyi bacarmalıdır. Lakin çətinlik ondadır ki, qeyd olunan bacarıqların formalaşdırılması üzrə işi addım addım, mərhələ-mərhələ deyil, eyni zaman kəsiyində yerinə yetirmək lazımdır. Belə ki, hələ savad təlimi dövründə, səslər haqqında danışarkən, biz, şagirdlərə sözdə səsləri müəyyənləşdirməyi, onları müvafiq hərflə ifadə etməyi öyrədirik. Artıq elə bu dövrdə ilk çətin orfoqramlar meydana gəlir və deməli, təbii olaraq, orfoqrafik gözüitiliyi və özünənəzarəti də formalaşdırmaq zərurəti yaranır.

Orfoqrafik gözüitilik – yazmaq üçün nəzərdə tutulmuş mətndə orfoqramları tez görə bilmək və onların tipini müəyyənləşdirmək bacarığıdır. Ona görə də ilk öncə şagirdlərdə orfoqrafik gözüitiliyin formalaşdırılması məqsədilə tətbiq edilən çalışma növlərini nəzərdən keçirək:

1) Sözün orfoqrafik deyilişi – sözün yazıldığı kimi tələffüz edilməsi ilə xarakterizə edilir və bu zaman nitq aparatının hərəkətləri hərəki yaddaşda qalır. Bu priyomun orfoepik tələffüzə mənfi təsirinin qarşısını almaq üçün, sözü əvvəl orfoepik normalara uyğun, sonra isə yazıldığı kimi tələffüz etmək məsləhət görülür.

2) Sözün səs sxemində orfoqramın qeydə alınması. Məsələn, şagirdlərə təklif olunur ki, sözün səs sxemində "təhlükəli yerlər" qırmızı dairəyə alınsın. Bu, göz qavrayışını daha da fəallaşdırır.

3) "Svetofor" oyunu çətin orfoqramlı sözləri eşitməyə əsasən müəyyənləşdirməyə kömək edir. Bu zaman, müəllim müxtəlif sözlər tələffüz edir, uşaqlar "təhlükəli yeri" olan sözü (yəni əgər bu sözdə yazılarkən uyğun hərflə ifadə edilməyən səs varsa) eşidən kimi, svetaforun qırmızı işığını qaldırırlar, həmin sözün düzgün yazılışını izah etmək üçün fasilə edilir.

4) Düzgün yazılmış sözdə *orfoqramın tapılması* və altından xətt çəkilməsi.

5) Yazılı mətn əsasında kiçik şeir və ya yanıltmacların əzbərlədilməsi. Bu zaman uşaqlar hər bir sözə dəfələrlə ayrı-ayrı baxır, onların sərhədlərini görür, qrafik obrazlarını yadda saxlayırlar.

6) Cümlə sərhədləri pozulmuş (nöqtəsiz, baş hərfsiz verilmiş) mətnin orfoqrafik normalara uyğun yazılması. Müəllim uşaqlara söyləyir ki, güclü külək əsmiş və cümlələrdə olan nöqtələr, baş hərflər itmişdir. Onlara öz yerlərini tapmaqda kömək etmələrini xahiş edir.

7) İzoqraflarla iş – uşaqlara sözlər verilir, sözdə hərflər elə düzülür ki, sözün ifadə etdiyi əşyanın təsvirini xatırladır. Uşaqlara izoqrafda verilmiş sözü oxumaq, tərkibində olan orfoqramı tapmaq, onu rəngli karandaşla dairəyə almaq (görmə qavrayışının aydınlığı üçün), dəftərinə yazmaq təklif olunur.

8) Cümlə və mətnlərin üzündən köçürülməsi - əlifba təlimi və ondan sonrakı dövrdə şagirdlərin yazı texnikasını, kalliqrafik və orfoqrafik vərdişlərini formalaşdıran əsas təlim məşğələləridir. Prof.Y. Kərimov yazır ki, üzündənköçürmə zamanı şagird sözün hərf tərkibinə diqqətlə baxır, sözün yazılışını bir anlığa (bəlkə də həmişəlik) yadda saxlayır, yazarkən görmə, əlhərəki, kinestezik analizatorlar birgə fəaliyyət göstərir. O, qeyd edir ki, şagirdlərin ilk günlərdən sözləri hərf-hərf və ya hecalarla deyil, bütöv sözlərlə üzündən köçürməsinə çalışmaq lazımdır. "Şagirdlərdə diqqətliliyi, qavrayışın fəallığını tərbiyə etmək üçün bir baxışla (bir dəfə oxumaqla) sözün yadda saxlanılmasına və yazılmasına nail olmaq lazımdır" (6,386).

9) İmlanın müxtəlif növləri (kommentarili, izahlı, görmə, yaddaş üzrə (əzbər), seçmə imla və s.). Bu imlaların təşkili yolları metodik ədəbiyyatda (3,5) kifayət qədər işıqlandırıldığından əlavə şərhə ehtiyac duymuruq. Sadəcə onu qeyd edə bilərik ki, ibtidai məktəbdə həmin imlaların gedişatında şagirdləri oyun priyomları vasitəsilə fəallaşdırmaq olar. Məsələn, kommentarili imla zamanı şagirdlərdən biri "Biləyən" seçilir və onun əlində zınqırov olur. Diktə olunmuş sözdə çətin orfoqram varsa, o, əlindəki zınqırovu səsləndirir, sözün düzgün yazılışını izah edir. Sözdə "təhlükəli məqam" yoxdursa, susur.

10) "Özümü yoxlayıram" imlası – şagirdlərdə yalnız yazılışı çətin orfoqramları tapmaq bacarığını deyil, həmçinin yazıda çətinlik çəkdiyi məqamları aşkara çıxarmaq bacarıqlarını inkişaf etdirir. Bu imla zamanı şagird yazdığı sözdə hər hansı bir hərfin olub olmamasında tə-

rəddüd edirsə, o hərfi yazmamaq və ya yazdığını lüğətdə yoxlamaqla, müəllimə sual verməklə, parta yoldaşı ilə məsləhətləşməklə dəqiqləşdirmək və lazım gələrsə, yazısında düzəliş etmək haqqına sahibdir. "Özümü yoxlayıram" imlası uşaqlarda öz yazısına məsuliyyətli münasibət, diqqətlilik, özünütənqid kimi keyfiyyətlərin formalaşmasına kömək etdiyi üçün əhəmiyyətlidir.

11) "Müəllim" didaktik oyunu. Bu oyun zamanı şagirdlərə öyrənilmiş orfoqrafik qayda ilə bağlı evdə bir sütun söz (çətin orfoqramın ötürülməsi şərti ilə) yazmaq tapşırığı verilir. Dərs prosesində əvvəlcə bir parta arxasında oturan şagirdlər bir-birinin ev tapşırığının düzgünlüyünü yoxlayırlar. Daha sonra tərtib etdikləri tapşırığı qonşu partada oturan şagirdlərlə dəyişdirirlər və hər kəs qarşısındakı tapşırığı müstəqil şəkildə yerinə yetirir: sözdə buraxılmış orfoqramları yerinə qoyur. Proses başa çatdıqdan sonra hər "müəllim" tərtib etdiyi tapşırığın düzgün icra edilib-edilmədiyini yoxlayır.

12) Cütlərlə iş prosesində qarşılıqlı nəzarət. Yanaşı oturan şagirdlərdən biri verilmiş çalışmanın ilk cümləsini və ya sözü parta yoldaşına oxuyur, çətin orfoqramı göstərir və necə yazılacağını izah edir. Bundan sonra şagirdlərin ikisi də sözü və ya cümləni yazırlar. Növbəti dəfə digər şagird sözü və ya cümləni oxuyur, izahat verir və proses belə davam edir. Bu cür qarşılıqlı nəzarət şagirdlərdə diqqətlilik, müzakirə etmək və öz cavablarını tutarlı dəlillərlə əsaslandırmaq bacarıqlarını inkişaf etdirir, yazı prosesində səhvlərin qarşısını əsasən alır.

13) Yazının korrektə edilməsi. Orfoqrafik gözüitilik, həmçinin şagirdlərdə özünün və başqasının yazısındakı səhvləri görə bilmək bacarığını da ehtiva edir. Bu baxımdan özünənəzarət (özünü yoxlama) və qarşılıqlı nəzarət çox səmərəlidir. Bu zaman oyun priyomlarından da istifadə etmək olar. Şagirdlərə səhvlərlə yazılmış məktub verilir, uşaqlar məktubu oxumalı, səhvləri tapıb düzəltməlidirlər.

14) Çaşdırıcı imla. Bu zaman müəllim şagirdlərə səslənməsinə görə yaxın olan, lakin yazılışı fərqlənən sözlər oxuyur (*mətin-mətn, sənəd-sənət, hakim-həkim* və s.). Şagirdlərin vəzifəsi həmin sözləri eşitməyə əsasən dərk etmək, mənasını izah etmək və düzgün yazmaqdır.

15) Özün düzəlt. Dəftərlərin yoxlanması zamanı müəllim şagirdlərin səhvlərini düzəltmir, yalnız altından qırmızı qələmlə xətt çəkir və ya sətirdə yol verilmiş səhvə diqqəti cəlb etmək üçün haşiyədə işarə qoyur. Şagird bu zaman səhvlərini müstəqil olaraq tapır və düzəldir.

Beləliklə, biz ibtidai sinif şagirdlərində savadlı yazının vacib şərtlərindən biri olan orfoqrafik gözüitiliyin inkişaf etdirilməsinə istiqamətlənmiş çalışmaları nəzərdən keçirdik.

Orfoqrafik vərdişlər ləng avtomatlaşır. Avtomatlaşmanın gec-tezliyi orfoqramın çətinlik dərəcəsindən də asılıdır. Orfoqrafik vərdişlərin formalaşması qrammatik anlayışların və orfoqrafik qaydaların mənimsənilməsinə istiqamətlənən çoxsaylı və rəngarəng çalışmaların aparılmasını tələb edir. Orfoqrafik qaydalar bir sözün deyil, müəyyən ümumi cəhətə malik olan bir qrup sözün yazılışını tənzimləyir.

İbtidai sinif şagirdlərində orfoqrafik vərdişlərin müvəffəqiyyətlə formalaşdırılması üçün orfoqrafik çalışmaların aşağıdakı formalarını təklif edə bilərik:

1) Qrammatik-orfoqrafik təhlil. Bu tip çalışmalar verilmiş mətndə orfoqrafik cəhətdən bütün "təhlükəli məqamların" tapılması və izah olunmasını nəzərdə tutur. Müəyyən orfoqramların dərk olunması və möhkəmləndirilməsi üçün şagirdlərin praktik fəaliyyətinin təmin edilməsi faydalı olur. Məsələn, bitişdirici samitlərlə (***n, y, s***) sözlərin yazılışının öyrədilməsi zamanı şagirdlərə əşyalarla müəyyən hərəkətlər icra etməyə icazə vermək və yaranmış ifadələri yazmağı təklif etmək olar (*quzu**n**u sığalladım, quzuya ot verdim* və s.)

2) Üzündənköçürmə ilə müşayiət olunan çalışmalar – bu, yuxarıda qeyd etdiyimiz kimi, hal-hazırda görmə qavrayışı ilə qavranılan söz, cümlə, mətnin yazılı ifadəsidir. Əksər hallarda üzündənköçürmə müəyyən qrammatik xarakterli tapşırığın icrası ilə müşayiət olunur ki, bu da orfoqrafik qaydanın tətbiqinə imkan yaradır. Digər tərəfdən, bu tip çalışmalar orfoqrafiya ilə birgə nitq inkişafı vəzifələrini də yerinə yetirməyə kömək edir. Məsələn:

- Buraxılmış hərfləri əlavə edib dəftərə köçürmə. Bu tip çalışmalar öyrənilmiş orfoqrafik qaydanı tətbiq etmək bacarığını möhkəmləndirir;

- Dəyişikliyə uğramış (söz sırası pozulmuş) cümlə və ya mətnin bərpa edilərək dəftərə köçürülməsi. Bu tip çalışmalar orfoqrafik vər-

dişlərin inkişafı ilə yanaşı şagirdlərin nitq inkişafında da əhəmiyyətlidir;

- Seçmə üzündənköçürmə. Bu, müəyyən qayda ilə bağlı olan orfoqramların seçilərək dəftərə köçürülməsidir;

- Verilmiş krossvordun kollektiv şəkildə həll edilməsi və alınmış cavabların dəftərə köçürülməsi (həmin cavablarda qarşıya möhkəmləndirilməsi məqsəd qoyulmuş orfoqramın olması zəruridir);

- verilmiş hərf və ya hecalardan sözlərin düzəldilməsi və alınmış sözlərdən yalnız öyrənilən qayda ilə bağlı olanlarının dəftərə köçürülməsi. Burda "Güllərdən şirə çəkməkdə arıya kömək et" və s. oyunlardan da istifadə etmək olar. Arının ayağında və güllərin üzərində bir heca yazılır. Bu güllərin arasında elələri olur ki, arı onların üzərinə oturduqda yeni söz yaranır və şagirdlər həmin sözləri tərkibində olan orfoqramın altından xətt çəkməklə dəftərlərinə yazırlar. Lakin elə güllər də vardır ki, onların üzərinə qonmaq olmaz - əks təqdirdə sözün yazılışında səhv olar.

3) İmla – orfoqrafik çalışma növlərindən biri olub, eşitməyə əsasən qavradıqları söz, cümlə, mətnin şagirdlər tərəfindən yazılmasıdır. Yuxarıda, şagirdlərdə orfoqrafik gözüitiliyin formalaşdırılması məqsədilə tətbiq edilən çalışma növlərini nəzərdən keçirərkən bəzi imla növlərinin adını qeyd etmişik. Öyrədici imlaların keçirilməsi zamanı müxtəlif priyomlardan istifadə etməklə şagirdlərin idrak fəallığını

təmin etmək olar. Məsələn, imla zamanı müəllim keçilən orfoqramla bağlı sözləri ədəbi tələffüzə uyğun olaraq oxuyur, şagirdlər isə bu söz hansı hərflə yazılacaqsa onu qaldırıb göstərirlər (məsələn: *qən**d**, cora**b**, ağa**c**, çələn**g*** tipli kar samitlə tələffüz edilib cingiltili samitlə yazılan sözlər diktə edilə bilər);

4) Leksik-orfoqrafik çalışmalar. Bu tip çalışmalar orfoqrafik cəhətdən təhlil olunan sözün semantikası üzərində də iş aparmağı nəzərdə tutur. Leksik-orfoqrafik çalışmalara orfoqrafik lüğətlə aparılan işi də aid etmək olar: bu zaman şagirdlər lüğətdə sözün yazılışına baxmaqla yanaşı, onun mənasını da dəqiqləşdirə bilərlər ki, bu da onların lüğət ehtiyatını həm zənginləşdirə, həm də fəallaşdıra bilər.

5) Perfokartlarla iş. Təlim prosesində perfokartlardan istifadə şagirdlərə fərdi-diferensial yanaşmağa imkan verir. Müəyyən orfoqrama aid hazırlanmış perfokartlar, şagirdlərin diqqətini bir orfoqrafik qayda üzərində cəmləşdirməyə kömək edir, onlara bu qayda ilə bağlı biliklərini yoxlamağa şərait yaradır. Şagird tapşırığı sərbəst yerinə yetirir və fəaliyyətinin nəticəsini görür. Perfokartlarla işin müəllim üçün bir çox üstünlükləri var: müəllim qısa vaxt ərzində operativ olaraq bu və ya digər orfoqramın mənimsənilmə səviyyəsini qiymətləndirə və şagirdlərdə bir çox sözlərin düzgün yazılışı ilə bağlı vərdişlərin formalaşmasına kömək edə bilər.

Perfokart necə hazırlanır? Perfokart üzərinə müəyyən tapşırıq yazılmış birüzlü və ya arasına ağ vərəq qoyularaq ortasından bükülmüş ikiüzlü fərdi kartoçkalardır. Kartoçkanın üz hissəsində şagirdlərin içində yazması üçün "pəncərələr" kəsilir. Perfokartda müəllimin öyrətmək və ya möhkəmlətmək istədiyi orfoqramdan asılı olaraq müxtəlif tapşırıqlar verilə bilər. Perfokartlar həm hazırlanma, həm də istifadə baxımından çox asandır. Onların adi kartoçkalardan üstünlüyü, hər dəfə altına təmiz vərəq qoymaqla dəfələrlə istifadə edilə bilməsidir. Məsələn, müəllimə qoşa kar və ya qoşa cingiltili samitli sözlərin orfoqrafiyası ilə bağlı şagirdlərin bilik və bacarıqlarını yoxlamaq istəyir. Bu zaman o, üzərində *doqquz, səkkiz, toqqa, tappıltı* və s. sözlər yazılmış perfokartlar hazırlayır. Həmin sözlərdə yazılışı ilə tələffüzü fərqlənən samitlərin yerində "pəncərə" kəsir. Şagird perfokartın altına ağ vərəq qoyaraq "pəncərədə" buraxılmış orfoqramı yazır.

6) Mnemonika priyomları yazılışı çətin sözlərin yadda qalmasını asanlaşdırır. (Mnemonika yunan sözüdür, mənası "yaddasaxlama məharəti" deməkdir). Mnemonika lazım olan məlumat və faktların süni assosiasiyaların köməyi ilə yadda qalmasını asanlaşdıran priyom və qaydaların məcmusudur. Əqli əmək mədəniyyəti nöqteyi-nəzərindən mnemonika – yaddasaxlamanın ən rahat priyomlarından biridir. Yazılışı çətin olan müəyyən sözləri şagird hər hansı bir ümumi əlamətinə görə özü üçün bir qrupda birləşdirə bilər, yəni beynində süni assosiasiya yarada bilər. Məsələn, la***yi***hə, şa***yi***ə, müşa***yi***ət tipli sözlərin düzgün yazılışının yadda qalması üçün şagird ***yi*** hərfbirləşməsini yadda saxlaya bilər və bu da həmin sözlərin *lahiyə, şaiyə, müşayət* şəklində səhv yazılışının qarşısını alar.

7) Didaktik vəsaitlərlə iş də öyrənilmiş orfoqramın təkrar olunması və daha möhkəm yadda qalmasına imkan verir. Orfoqramların təkrarlanması bədii ədəbiyyat nümunələri üzərində aparılarsa, bu həm də şagirdlərin lüğətinin zənginləşməsinə, onlarda dilə marağın tərbiyə olunmasına şərait yarada bilər. Məsələn, şagirdlərə Zeynal Cabbarzadənin aşağıdakı şeirini verib nöqtələrin yerinə indiki (keçmiş, gələcək) zaman şəkilçilərini artırmağı təklif etmək olar:

Dağda çoban çal... tütək,
Ot otla... qoyun, inək,
Əs... sərin-sərin külək,
Sevimli xoş bahar gəl...

Bu zaman şagirdlərin diqqətini ikinci sətirdə *otla* sözünə indiki zaman şəkilçisi artırarkən baş verən hadisəyə cəmləmək lazımdır (otla***y***ır /otl***uy***ur/).

Bu cür çalışmaların icrası zamanı şagirdlər yalnız buraxılmış hərfləri, hecaları, durğu işarələrini və s. yerinə qoymurlar, həmçinin bilavasitə bədii ədəbiyyat nümunələri ilə də təmasda olurlar.

8) Yaradıcı yazı işləri. Bunlara ifadə və inşalar aiddir. Bu yazı işləri şagirdlərin nitqinin inkişafına – onlarda lüğət ehtiyatının zənginləşməsi və rabitəli yazılı nitq vərdişlərinin formalaşmasına istiqamətlənmişdir. İfadə və inşalar orfoqrafik mövzunun öyrənilməsinin yekun mərhələsində, yəni şagirdlər qaydanı tam mənimsədikləri və tətbiq etməyə hazır olduqları zaman təşkil edilə bilər. Yaradıcı yazılar əyləncəli xarakter də daşıya bilər. Məsələn, şagirdlərə Qarqıza, dostuna məktub yazmaq və onu elektron poçt vasitəsilə göndərmək (bu zaman dost məktubu alır və yoxlayır), məktəb divar qəzetinə məqalə hazırlamaq təklif oluna bilər.

Orfoqrafik vərdişlərin psixoloji təbiətini və onun formalaşma mərhələlərini təhlil etməklə belə nəticəyə gəldik ki, ibtidai məktəbdə şagirdlər nitq səsləri, onların sözdə zəif və güclü mövqeləri haqda zəruri məlumat əldə edirlər. Məhz həmin dövrdə orfoqrafik bilik, bacarıq və vərdişlərin əsası qoyulur. Təməli ibtidai siniflərə qoyulmuş bu bacarıqlar orta məktəbin sonuna qədər Azərbaycan dili təlimi boyunca daha da mürəkkəbləşir, təkmilləşir və sonda avtomatlaşmış yazı vərdişlərinə çevrilir.

**Problemin elmi yeniliyi**: Məqalədə ibtidai sinif şagirdlərində orfoqrafik gözüitiliyin və ümumiyyətlə davamlı orfoqrafik vərdişlərin formalaşdırılması məqsədilə tətbiq edilə biləcək çalışma növləri, yeni metod və vasitələr təklif edilmişdir.

**Problemin nəzəri və praktik əhəmiyyəti**. Məqalə sinif müəllimlərinə şagirdlərdə avtomatlaşmış orfoqrafik vərdişlərin formalaşdırılması məqsədilə aparılan işləri düzgün təşkil etmək üçün praktik istiqamət verə bilər. Belə ki, sinif müəllimləri məqalədə göstərilən səmərəli yollardan istifadə etməklə ibtidai siniflərdə orfoqrafik vərdişlərin formalaşdırılması üzrə işin məzmununu, forma və metodlarını daha da təkmilləşdirə, zənginləşdirə bilərlər.

## Ədəbiyyat:


1. Dəmirçizadə Ə. Azərbaycan dili orfoqrafiyasının əsasları, Bakı, 1969.
2. Abdullayev N. Düzgün yazı təliminin bəzi məsələləri, Bakı, 2003.
3. Abdullayev N. Orfoqrafiya və orfoepiya təlimi məsələləri, Bakı, 2008.
4. Əfəndizadə Ə. Düzgün yazı təliminin elmi əsasları, Bakı, 1975.
5. Kərimov Y. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası, Bakı, 2013.
6. Soltanov M. Məktəblinin orfoqrafiya-qrammatika lüğəti, Bakı, 2014.


E-mail: maya0866@gmail.com
**Rəyçi:***ped. ü.fəls.dok., dos.* A.X. Hacıyev
**Redaksiyaya daxil olub: 02.05.2018**